AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

BİZ **BİRLİKDƏ** GÜCLÜYÜK!

# KLUBLARIN LİSENZİYALAŞDIRILMASI HESABAT 2017

# Mündəricat


| | |
|---|---|
| **ÖN SÖZ** | **3** |
| **Maraqlı faktlar** | **5** |
| **Lisenziyalaşdırma üzrə statistik göstəricilər** | **7** |
| **2015-16-cı il lisenziyalaşdırma mövsümündə qaydalarda dəyişikliklər** | **10** |
| **Mövsüm ərzində keçirilmiş treninqlər, seminarlar və görüşlər** | **12** |
| **Meyarlar üzrə statistik göstəricilər** | |
| • İdman meyarları | **18** |
| • İnfrastruktur meyarları | **24** |
| • Kadr-inzibati meyarlar | **31** |
| • Hüquq meyarları | **40** |
| • Maliyyə meyarları | **44** |
| **Hesabatı hazırlayanlar** | **48** |



# Ön söz

Nəzərinizə çatdırırıq ki, AFFA-nın Klubların Lisenziyalaşdırılması üzrə IV illik hesabatında yer almış məlumatlar 2016-2017-ci il Premyer Liqa mövsümünü və 2016-cı il maliyyə ilini əhatə edir. İnanırıq ki, hesabatda əks olunmuş məlumatlar və müqayisəedici göstəricilər Azərbaycan futbol ailəsi üçün maraqlı və faydalı olacaqdır.
Təqdim olunmuş hesabatda futbol klublarının lisenziyalaşdırılması sahəsində müxtəlif istiqamətlərdə, o cümlədən idman, infrastruktur, kadr-inzibati, hüquq və maliyyə meyarları üzrə verilmiş statistik göstəricilər, eyni zamanda lisenziyalaşdırma mövsümü ərzində keçirilmiş seminar və tədbirlərlə bağlı ətraflı məlumat yer almışdır.
Lisenziyalaşdırma sistemi 2004-cü ildən UEFA tərəfindən UEFA-ya üzv olan bütün assosiasiyalarda tətbiq olunur və futbol klublarının inkişafı və davamlı fəaliyyət göstərməsində çox mühüm rol oynayır. 2016-cı ildə qlobal iqtisadiyyatda gedən mürəkkəb proseslər və maliyyə çətinlikləri fonunda ötən mövsümdə futbol klublarının maliyyə göstəricilərinin gəlir və xərclərində azalma müşahidə olunsa da, çox fərəhli haldır ki, cari mövsümdə klubların gəlir və xərclərində artım müşahidə olunur. Eyni zamanda qeyd etmək lazımdır ki, Premyer Liqa və UEFA oyunlarına bilet satışından əldə olunan gəlirlər kəskin surətdə azalmışdır. Bu da onu göstərir ki, Azərbaycan futbolunda görülməli olan işlər hələ də çoxdur.
Müxtəlif sahələri əhatə edən hesabatın futbol ictimaiyyətə təqdim olunmasını müsbət hal kimi qiymətləndiririk və onun ictimaiyyət üçün faydalı olacağına inanırıq.

**Rövnəq Abdullayev**
AFFA-nın prezidenti

AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Mövsüm ərzində nə baş verib?

## Maraqlı faktlar

- Premyer Liqa klublarında çalışan Azərbaycanlı məşqçilərin sayı 94%-dan 93%-dək azalmışdır
- Premyer Liqa klublarının nəzdində çıxış edən Qızlar komandalarının sayı 5-dən 6-ya yüksəlmişdir
- Premyer Liqa klublarının nəzdində çıxış edən uşaq-gənclər komandalarının sayı 8% azalmışdır
- 5 Mövsüm əzrində klublar üçün 1 kurs, 1 seminar və 2 görüş təşkil olunmuşdur
- Kəpəz PFK-nın ev oyunlarında azarkeş sayı 38% azalıb. Ümumi olaraq ötən mövsümlə müqayisədə stadionlara gələn azarkeşlərin sayında azalma müşahidə olunur
- Cari mövsümdən etibarən Lisenziyalaşdırma qaydaları AFFA-nın Futbola Qoşul qeydiyyat proqramı ilə bağlı tələbləri idman meyarlarında izah edir
- Cari mövsümdə Premyer Liqada əsas komandalarda çalışan bütün baş məşqçilər UEFA-nın Pro Diplomuna sahib olmuşdur və ya həmin kursda oxuyurdu
- Əmək haqlarına sərf olunan vəsait 26% artmışdır
- Klubarın ümumi gəlirləri 21%, xərcləri isə 31% artmışdır
- Premyer Liqa matçlarına bilet satışından olan ümumi gəlir (-80%), UEFA-nın yarışları üzrə isə (-52%) azalmışdır



AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Lisenziyalaşdırma üzrə statistik göstəricilər

# 2017-18-ci il lisenziyalaşdırma mövsümündə UEFA və Premyer Liqa yarışlarında iştirak etmək üçün verilmiş lisenziyalar

**PL lisenziyası əldə etmiş klublar:**

Kəpəz PFK
Səbail PFK

**PL lisenziyası əldə etməmiş klublar:**

Turan-Tovuz FK
Zaqatala FK
Qaradağ Lökbatan FK
MOİK PFK
Mil-Muğan FK
Şəmkir FK
AZAL PFK

**UEFA lisenziyası əldə etmiş klublar:**

Qəbələ İK
İnter PİK
Qarabağ FK
Neftçi PFK
Zirə PFK
Sumqayıt FK




**QEYD:**
UEFA lisenziyası əldə edən klublar avtomatik olaraq PL lisenziyası əldə etmiş hesab olunur
Sumqayıt FK və Zirə PFK tarixlərində ilk dəfə UEFA lisenziyası əldə etdi

# Lisenziya Komissiyasının qərarları (2004-2017) Klublar üzrə

2004-2017-ci illər ərzində Azərbaycanda 34 klub lisenziyalaşdırma prosesindən keçib və nəticələr aşağıdakı kimidir:

91 - UEFA lisenziyası verilib
19 - UEFA lisenziyası verilməyib
37 - PL lisenziyası verilib
41 - PL lisenziyası verilməyib



# Lisenziya Komissiyasının qərarları 2004-2017-ci illər üzrə



AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# 2016-17-ci il lisenziyalaşdırma mövsümündə qaydalarda dəyişikliklər

## Lisenziyalaşdırma üzrə qaydalara (Buraxılış 2016) müəyyən dəyişiklik və əlavələr edilmişdir:

- Cari mövsümdən etibarən Lisenziya iddiaçısının bütün oyunçularının qeydiyyatı AFFA-nın "Futbola qoşul" proqramı vasitəsi ilə həyata keçirilir.

- İlk dəfə olaraq AFFA tərəfindən «Lisenziyalaşdırma üzrə menecerlər üçün kurs» keçirilib. Cari mövsümdən etibarən, Lisenziyalaşdırma üzrə qaydaların tələblərinə cavab vermək üçün Lisenziyalaşdırma üzrə menecerlər yuxarıda qeyd olunmuş kursda iştirak etməlidir.

- Cari mövsümdə I Diviziondan müraciət edən lisenziya iddiaçıları üçün Lisenziyalaşdırma prosesini asanlaşdırmaq məqsədi ilə Gənclər komandaları tələbi sadələşdirilmişdir.











AFFA
Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Mövsüm ərzində keçirilmiş treninqlər, seminarlar və görüşlər

**21-23 Sentyabr 2016-cı il tarixlərində Lisenziyalaşdırma qrupunun əməkdaşları Maltanın Saint Julians şəhərində UEFA-nın "Klubların Lisenziyalaşdırılması və Maliyyə Fair Playi" mövzusunda keçirilmiş seminarda iştirak ediblər. Seminarın əsas mövzuları aşağıdakılar olmuşdur:**

- 2016-cı il üzrə Lisenziyalaşdırma üzrə qəbul olunmuş qərarlar və müvafiq nəticələr
- "3 illik üzvlük qaydası" və xüsusi icazənin tətbiq olunması
- FİFA-nın Klubların Lisenziyalaşdırılması üzrə qaydalarında baş verəcək dəyişikliklərin müzakirəsi
- Gələcək 2018-2021-ci il dövründə UEFA-nın yarışlarında tətbiq olunacaq dəyişikliklərin Lisenziyalaşdırma və Maliyyə Fair Playi sisteminə potensial təsiri
- Qadın futbolunun inkişafında Lisenziyalaşdırma sisteminin vacibliyi
- Gənclər Futbolunun İnkişafı Proqramının qiymətləndirilməsi və Futbol Akademiyalarının inkişafı
- Klublarda azarkeşlərlə (həmçinin əlil azarkeşlərlə) əlaqələndirici şəxslərin fəaliyyəti ilə bağlı müzakirələr
- 2015-16-cı illər ərzində Maliyyə "Fair Playi" üzrə klublarda aparılan monitorinqlər və onların nəticələri
- Klublara Maliyyə Nəzarəti Orqanının (Club Financial Control Body (CFCB) fəaliyyəti
- UEFA-nın və federasiyaların əməkdaşları arasında ikitərəfli görüşlər və müzakirələr





16 avqust 2016-cı il tarixində İsveçrənin SGS şirkəti AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyəti ilə bağlı yoxlama aparmışdı. Yoxlamanın nəticələrinə əsasən AFFA-nın Lisenziyalaşdırma qrupunun fəaliyyəti UEFA-nın Klubların Lisenziyalaşdırma üzrə keyfiyyət standartlarına uyğun hesab olunub və Lisenziyalaşdırma qrupuna 2017-18-ci il Lisenziyalaşdırma mövsümü çərçivəsində Azərbaycan klublarının UEFA yarışlarında iştirakı ilə bağlı lisenziyalaşdırma prosesini həyata keçirmək hüququ verilmişdir.


SGS

Association of Football Federations of Azerbaijan

Club Licensing Quality Standard Edition 2012



13 oktyabr 2016-cı il tarixində UEFA-nın Klubların Lisenziyalaşdırılması və Maliyyə Fair Play şöbəsinin rəhbəri Andrea Traverso Bakı şəhərinə səfər etmişdi. Andrea Traverso AFFA-nın baş katibi Elxan Məmmədovla görüşmüş və Azərbaycanda lisenziyalaşdırma sisteminin tətbiqi ilə bağlı müzakirələr aparmışdı.



Daha sonra Andrea Traverso, AFFA-nın baş katibi Elxan Məmmədov və AFFA-nın Lisenziyalaşdırma qrupu üzvlərinin iştirakı ilə "Neftçi" PFK, "Qəbələ" İK, "İnter" PİK və "Qarabağ" FK-nın rəhbər şəxsləri arasında görüşlər keçirilib. Görüşlərin əsas mövzusu Maliyyə Fair Play tələblərinin və Lisenziyaşdırma qaydalarının klublar tərəfindən tələb olunan şəkildə yerinə yetirilməsi və tətbiqi, xüsusən maliyyə meyarlarının düzgün yerinə yetirilməsi ilə bağlı olub.



Andrea Traverso klubların qeyd olunmuş tələblərə əməl etməsinin vacibliliyini xüsusi qeyd edib və bununla bağlı tövsiyələrini verib.




26 oktyabr 2016-cı il tarixində AFFA-nın Futbol Akademiyasında Lisenziyalaşdırma qrupunun təşkilatçılığı ilə klublarda çalışan Lisenziyalaşdırma üzrə menecerlər üçün kurs keçirilib.

Kursda aşağıdakı mövzular əhatə olunub:

- UEFA və AFFA barədə ümumi məlumat;
- Lisenziyalaşdırma sistemi, lisenziyalaşdırma prosesi və iştirakçıları barədə ümumi məlumat;
- Lisenziyalaşdırma üzrə qaydalarda (Buraxılış 2016) ötən mövsümə nisbətən baş vermiş dəyişikliklər;
- Lisenziyalaşdırma üzrə idman, infrastruktur, kadr-inzibati, hüquq və maliyyə meyarlarının icmalı və praktiki məşğələlər;

Lisenziyalaşdırma qrupunun əməkdaşları ilə birgə AFFA-nın digər şöbə və departamentlərinin əməkdaşları lisenziyalaşdırma sistemi ilə əhatə olunan aşağıdakı mövzulara aid təqdimatlarla çıxış edib, klub nümayəndələri üçün ətraflı məlumat verib və sualları cavablandırıblar:

- Klubların akademiyalarında mövcud vəziyyət
- AFFA-da oyunçuların qeydiyyat qaydaları (Futbola qoşul proqramı)
- Futbolda danışılmış oyunlara qarşı mübarizə
- Futbolçulara tibbi xidmətlə bağlı minimum tələblər
- Klublar üçün Oyun qaydaları və hakimlik məsələləri ilə bağlı təşkil olunan seminarlar
- Uşaq-gənclər yarışlarının keçirilməsinə aid məsələlər
- Klublarda Azarkeşlərlə Əlaqələndirici şəxsin vəzifələri
- AFFA-nın məşqçilik üzrə təhsil sisteminin strukturu və s.



Seminarın sonunda iştirakçılar yazılı test imtahandan keçərək, kursda iştirak etdikləri ilə bağlı müvafiq təsdiqedici sənədlər əldə edib.








Lisenziyalaşdırma qaydalarının tələblərinə əsasən lisenziya iddiaçıları təhlükəsizlik məsələləri üzrə cavabdeh olan Təhlükəsizlik xidmətinin rəisini təyin etməlidir. 15 noyabr 2016-cı il tarixində Lisenziyalaşdırma qrupunun təşəbbüsü ilə Bulvar Oteldə "Futbol matçları zamanı Təhlükəsizlik və Mühafizə məsələləri" üzrə seminar keçirilib.



Seminar Lisenziyalaşdırma qaydalarının tələbləri, həmçinin Bakıda 2020-ci ildə UEFA Avropa Çempionatının final mərhələsinin (EURO-2020) 4 oyunun keçirilməsinə hazırlıq məsələlərini əks edirdi.



Seminarda Beynəlxalq və daxili oyunlar zamanı stadionlarda təhlükəsizlik məsələlərinə cavabdeh olan Daxili İşlər Orqanlarının nümayəndələri, Premyer Liqa və I Divizion klublarının yuxarıda qeyd olunan əməkdaşları və fan klub nümayəndələri, AFFA və PFL nümayəndələri, Bakı-2017 İslam Həmrəyliyi Oyunlarının Yerli Təşkilat Komitəsinin nümayəndələri, UEFA-nın Təhlükəsizlik departamentinin əməkdaşları olan Kenneth Scott, Marc Timmer və Frosdick Stephen seminar zamanı Təhlükəsizlik və mühafizə məsələlərinə UEFA-nın yanaşması və konsepsiyası, bu məsələlərə aid milli strategiya və onun icra olunması, müxtəlif orqanların və təşkilatların bu sahədə əməkdaşlığı mövzüləri üzrə təqdimatlarla çıxış ediblər:
Seminarın sonunda iştirakçılar sertifikatlarla təltif olunmuşdu.



17 aprel 2017-ci il tarixində Lisenziyalaşdırma Qrupu tərəfindən Topaz Premyer Liqasında çıxış edən klubların maliyyə menecerləri üçün UEFA-nın Maliyyə Fair Play IT Tool proqramına (CL/FFP IT Solution) həsr olunmuş seminar keçirilmişdi.
Seminarda UEFA-nın Maliyyə Fair Play qaydaları müzakirə olunub və klub nümayəndələri 2016-cı maliyyə ili üzrə müvafiq məlumatları qeyd olunmuş proqrama daxil ediblər.





26 may 2017-ci il tarixində AFFA-nın inzibati binasında 2017-2018-ci il lisenziyalaşdırma mövsümündə UEFA-nın klub yarışlarında və Topaz Premyer Liqasında iştirak etmək üçün lisenziya əldə etmiş klubların nümayəndələri ilə görüş keçirilib. Lisenziyalaşdırma Qrupunun əməkdaşları tərəfindən iştirakçılara mövsümünün yekunları ilə bağlı statistik göstəricilər və növbəti mövsümün lisenziyalaşdırma prosesini əhatə edəcək yeniliklərlə bağlı məlumat verilib.

Tədbirin sonunda növbəti mövsümdə Topaz Premyer Liqasında iştirak edəcək klublar müvafiq lisenziyalarla, həmçinin mövsüm ərzində əzmkarlığı ilə fərqlənən klub nümayəndələri xüsusi sertifikatlarla təltif olunub:

Zöhrab Hacıyev (Neftçi PFK) – ən yaxşı lisenziyalaşdırma üzrə meneceri,

Mənsurə Məmmədova (Kəpəz PFK) - ən yaxşı maliyyə meneceri.







# Lisenziyalaşdırma üzrə menecerlər üçün kursla bağlı məlumat Əldə olunmuş nəticələr




**Lisenziyalaşdırma üzrə menecerlər üçün keçirilmiş kursda 26 nəfər iştirak etmişdir.**
Orta müvəffəqiyyət əmsalı: 66%
Ən yüksək göstərici: 92.86%
Ən aşağı göstərici: 28.57%



AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Meyarlar üzrə statistik göstəricilər

## İdman meyarları

# Premyer Liqada çıxış edən klubların nəzdində olan uşaq-gənclər komandalarının sayı və digər maraqlı faktlar

Uşaq-Gənclər komandalarının sayı






# Gənclər komandaları həftədə neçə dəfə məşq edir?

## 10-14 yaş qrupları




# Gənclər komandaları həftədə neçə dəfə məşq edir?

## 15-19 yaş qrupları və qızlardan ibarət komandalar



# Gənclər futbolunun inkişafı proqramı
# Etibarlılıq müddətləri (illərlə)



# İrqi bərabərlik və ayrı-seçkiliklə mübarizə siyasəti
# Meyarın klublar tərəfindən yerinə yetirilmə nümunələri

Lisenziya iddiaçıları UEFA-nın 10 bənddən ibarət «Futbolda irqçiliklə mübarizə siyasəti» planına müvafiq olaraq aşağıda qeyd olunmuş tədbirləri görürlər:

- Rəsmi internet səhifələrində bəyannamələr yerləşdirilir;
- Stadionlar və rəsmi internet səhifələrində bannerlər yerləşdirilir.












# Oyunçulara tibbi xidmət

Lisenziya iddiaçıları bütün oyunçularının illik əsasda tibbi müayinədən keçirilməsini təsdiq edən sənədləri Lisenziyalaşdırma qrupuna təqdim etmişdir.

Bu tələb klubun əsas komandası ilə bərabər, uşaq-gənclər sektoruna da şamil olunur.



AFFA
Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

SGS
Lisenziyalaşdırma Qrupu
Licensing Group

**Futbol klublarının həkimləri üçün anket**

Klubun adı: ____________________

Klub həkiminin adı: ____________________

Tarix: ____________________

İmza: ____________________

1) Mövsümdən əvvəl klubun əsas komandasında oynamaq hüququ olan bütün oyunçuları illik tibbi müayinədən keçiblərmi?

| Bəli | Yox |
|---|---|
| | |

2) Keçirilmiş İllik müayinə haqda məlumat

| Xəstəxananın adı | Xəstəxananın telefon nömrəsi | Müayinə tarixi |
|---|---|---|
| | | |

3) Müayinə zamanı həkim tərəfindən nələr yoxlanılmışdır

| | Bəli | Yox |
|---|---|---|
| Ailənin anamnezi ( valideynlər, bacılar, qardaşlar); | | |
| Oyunçunun anamnezi | | |
| Oyunçunun şikayətləri | | |
| Tibbi preparatlar, qida əlavələri | | |
| Peyvəndlər | | |
| Ümumi tibbi müayinə | | |
| Xüsusi kardioloji müayinə | | |
| Laboratoriya tədqiqatları | | |
| Ortopedik müayinə | | |

5) Klub oyunçuları üçün hazırlanan daimi təzələnən tibbi kartlar mövcuddurmu?

| Bəli | Yox |
|---|---|
| | |

Həkim anketi

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# İnfrastruktur meyarları üzrə statistik göstəricilər

# 2017-18-ci il mövsümündə UEFA-nın klub və Premyer Liqa oyunlarının keçiriləcəyi stadionlar



# Komandaların ev oyunlarına orta hesabla neçə azarkeş gəlmişdir?
## (ötən mövsümlə müqayisədə)




| | Kəpəz | Qarabağ | Sumqayıt | Qəbələ | Neftçi | Zirə | İnter | AZAL |
|---|---|---|---|---|---|---|---|---|
| 2016-2017 | 8.096 | 1832 | 1419 | 1407 | 1200 | 986 | 820 | 366 |
| 2015-2016 | 13.369 | 1721 | 1326 | 1408 | 1644 | 1111 | 671 | 378 |

# Cari mövsüm üzrə oyunlara gələn azarkeşlərin sayı



# Növbəti mövsümdə **Premyer Liqa** klubları tərəfindən aşağı yaş qrupu komandalarının ev oyunları üçün istifadə ediləcək meydançalar

<table>
<tr><th></th><th>Neftçi</th><th>Qarabağ</th><th>İnter</th><th>Qəbələ</th><th>Kəpəz</th><th>Səbail</th><th>Zirə</th><th>Sumqayıt</th></tr>
<tr><td>Əvəzedici</td><td rowspan="3">Dalğa Arena 2</td><td>Bayıl Arena</td><td rowspan="5">İnter Arena 4-cü meydança</td><td rowspan="5">Qəbələ Şəhər Stadionu (müxtəlif meydançalar)</td><td rowspan="5">Gəncə şəhər stadionu</td><td rowspan="5">Bayıl Arena</td><td rowspan="2">Zirə İdman Kompleksi</td><td rowspan="5">Kapital Bank Arena</td></tr>
<tr><td>U-19</td><td>Zirə İdman Kompleksi</td></tr>
<tr><td>U-17</td><td rowspan="2">Binə Stadionu</td><td rowspan="3">Milli Aviasiya Akademiyasının Stadionu</td></tr>
<tr><td>U-16</td><td>Binə stadionu</td></tr>
<tr><td>U-15</td><td>Dalğa Arena 2</td><td>Sərhədçi İOM</td></tr>
<tr><td>U-10 - U-14</td><td colspan="8">Meydançalar mərkəzləşdirilmiş şəkildə AFFA tərəfindən təşkil olunur</td></tr>
<tr><td>Qızlar</td><td>Binə stadionu</td><td></td><td>115 Nömrəli orta məktəbin meydançası</td><td>Qəbələ şəhər St. 8-ci meydança</td><td></td><td></td><td></td><td>Kapital Bank Arena</td></tr>
</table>

## Təbii və süni meydançalar

### Premyer liqa






**İNTER ARENA**



**QƏBƏLƏ ŞƏHƏR STADIONU**

# Stadion inspeksiyaları








- Mövsüm ərzində klublar tərəfindən istifadə olunan stadionlarda Lisenziyalaşdırma qrupu tərəfindən inspeksiyalar keçirilmişdir.
- İnpeksiyalar zamanı aşkar olunmuş nöqsan və çatışmazlıqlarla bağlı hesabatlar hazırlanmış və klublara təqdim olunmuşdur.
- Klublar tərəfindən çatışmazlıqları aradan qaldırmaq məqsədi ilə cavab hərəkət planları hazırlanaraq Lisenziyalaşdırma qrupuna təqdim olunmaqdadır.

AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası

# Kadr-inzibati meyarları üzrə statistik göstəricilər

# Klub katibliyi

## Klubların ofisləri harada yerləşir?




- Bütün klubların ofisləri zəruri əlaqə vasitələri (e-mail, fax və s.) ilə təmin olunub
- Bütün klubların rəsmi internet saytları fəaliyyət göstərir
- Sumqayıt və Kəpəz klubları istisna olmaqla bütün klubların ofisləri Bakı şəhərində yerləşir.

# Klubların maliyyə menecerləri hansı ixtisasa malikdirlər?




# Klubların təhlükəsizlik xidmətinin rəhbərləri hansı ixtisasa malikdirlər?



# Klublarda mətbuat katibləri hansı ixtisasa malikdirlər?




- AFFA tərəfindən keçirilən seminarda iştirakla bağlı sertifikat
- Jurnalistika üzrə ali təhsil

Jurnalistika üzrə ali təhsilli mətbuat katibləri həmçinin AFFA tərəfindən verilən sertifikatlara malikdirlər

# Azarkeşlərlə əlaqələndirici şəxs və əlil azarkeşlərlə əlaqələndirici şəxs

- Azarkeşlərlə əlaqələndirici şəxs
- Digər əməkdaşa həvalə olunub

- Azarkeşlərlə əlaqələndirici şəxsə həvalə olunub
- Vəzifə mövcud deyil
- Əlil azarkeşlərlə əlaqələndirici şəxs







# Komandaların həkimləri və fizioterapevtləri hansı fakültəni bitirib?




- Müalicə işi
- Pediatriya
- Sanitariya

- Neftçi PFK-da Moldova vətəndaşı olan həkim çalışır
- Digər klublarda çalışan həkimlər Azərbaycan vətəndaşıdırlar

# Komandaların fizioterapevtləri hansı fakültəni bitirib?




- Müalicə işi
- Tibbi profilaktika
- Massajçı sertifikatı

- Qəbələ İK-da Ukrayna vətəndaşı olan fizioterapevt çalışır
- Digər klublarda çalışan fizioterapevtlər Azərbaycan vətəndaşıdır

# Lisenziyalaşdırma üzrə menecer vəzifəsini hansı əməkdaşlar yerinə yetirir?




- Lisenziyalaşdırma üzrə menecer
- İnsan resursları üzrə menecer
- Hüquqşünas
- Mətbuat katibi
- Inzibatçı

# TMS üzrə menecer vəzifəsini hansı əməkdaşlar yerinə yetirir?




- TMS üzrə Menecer
- Mətbuat xidmətinin rəhbəri
- Baş menecer
- Lisenziyalaşdırma üzrə menecer
- Komanda meneceri
- Prezident

# Əsas komandaların baş məşqçiləri hansı ixtisaslara malikdirlər?







- İnter PİK-in baş məşqçisi Zaur Svanadze və Zirə PFK-nın baş məşqçisi Ayxan Abbasov xarici ölkələrdə keçirilən PRO kurslarına yazılıblar.
- Sumqayıt FK-nın baş məşqçisi Samir Abbasov Azərbaycanda keçirilən PRO kurslarına yazılıblar.

- Ən gənc məşqçi Ayxan Abbasov (Zirə PFK) - 36 yaş
- Ən yaşlı məşqçi Zaur Svanadze (İnter PİK) - 59 yaş

# Əsas komandaların baş məşqçiləri hansı ölkələrin vətəndaşıdırlar?



# Baş məşqçinin köməkçiləri hansı ixtisasa malikdirlər və hansı ölkələrin vətəndaşıdırlar?







# Əsas komandanın məşqçi heyəti hansı ölkələri təmsil edir? (müqayisə)

| KLUB | BAŞ MƏŞQÇİ | BAŞ MƏŞQÇİNİN KÖMƏKÇİSİ | QAPIÇILAR ÜZRƏ MƏŞQÇİ | FİZİKİ HAZIRLIQ ÜZRƏ MƏŞQÇİ |
|---|---|---|---|---|
| Neftçi PFK | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **UKRAYNA** |
| AZAL PFK | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | |
| Sumqayıt FK | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** |
| Zirə PFK | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | |
| İnter PİK | **GÜRCÜSTAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** |
| Qarabağ FK | **AZƏRBAYCAN** | **BOLQARISTAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** |
| Qəbələ İK | **UKRAYNA** | **AZƏRBAYCAN** | **UKRAYNA** | **AZƏRBAYCAN** |
| Kəpəz PFK | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** | **AZƏRBAYCAN** |

# Klublarda çalışan məşqçilərin ixtisasları ÜMUMİ 2016 və 2017-ci illər üzrə

**QEYD:**
Ötən mövsüm üzrə hesabat hazırlanarkən Premyer Liqanın 9 klubu tərəfindən təqdim olunan məlumat nəzərə alınmışdır.Cari mövsüm üzrə isə hesabat 8 klub tərəfindən təqdim olunan məlumata əsaslanmışdır.



## Gənclər futbolunun inkişafı proqramının rəhbərləri

(ixtisaslar və təmsil etdikəri ölkələr)




Gənclər Futbolunun İnkişafı Proqramının rəhbərləri UEFA A məşqçilik kateqoriyasına malikdir.

## Klublarda çalışan yerli və xarici məşqçilərin nisbəti

ÜMUMİ

2016-17-ci il mövsümündə Premyer Liqada çıxış edən klublarda çalışan 114 məşqçi lisenziyalaşdırma prosesindən keçmişdir.
Onlardan:
106 - Azərbaycan vətəndaşı
8 - Xarici vətəndaşlar




## Fiziki hazırlıq və qapıçıların hazırlığı üzrə məşqçilər

### hansı ixtisasa sahibdir?

- Neftçi PFK-da çalışan Fiziki hazırlığı üzrə məşqçi Ukrayna vətəndaşıdır
- Digər klublarda çalışan Fiziki hazırlıq və qapıçıların hazırlığı üzrə məşqçilər Azərbaycan vətəndaşıdırlar




## Qapıçıların hazırlığı üzrə məşqçilər



# Əvəzedici və uşaq-gənclər komandalarının məşqçilərinin ixtisasları

| Klub | Gənclər komandaları | | | | | | | | | | | Kateqoriyalar | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | *Əvəz-edici* | *U-19* | *U-17* | *U-16* | *U-15* | *U-14* | *U-13* | *U-12* | *U-11* | *U-10* | *QK** | UEFA Pro | UEFA A | UEFA B | UEFA C | ADBTİA |
| Neftçi PFK | A | A* | A | B | A | B | B | B | B | A | C | - | 5 | 5 | 1 | - |
| Zirə PFK | B | A* | B | B | B | B | B | B | Pro | B | - | 1 | 1 | 8 | - | - |
| Qarabağ FK | A | Pro | Pro* | B | B | B | A | Pro | A | A* | - | 3 | 4 | 3 | - | - |
| İnter PİK | B | B | B | B | B | B | B | A* | B | B | B,B | - | 1 | 11 | - | - |
| AZAL PFK | - | B | B | B | B | A* | B | B | B | C | - | - | 1 | 7 | 1 | - |
| Qəbələ İK | A | A | A** | B | A | B | B | B | B | B | B | - | 4 | 7 | - | - |
| Kəpəz PFK | A | A | B | A | C | ADBTİA | C | ADBTİA | C | C | - | - | 3 | 1 | 4 | 2 |
| Sumqayıt FK | A | A* | A | A | B | A | B | B | B | B | B | - | 5 | 6 | - | - |
| **Liqalar üzrə** | | | | | | | | | | | | **Ümumi say** | | | | |
| UEFA Pro | - | 1 | 1 | - | - | - | - | 1 | 1 | - | - | UEFA Pro | UEFA A | UEFA B | UEFA C | ADBTİA |
| UEFA A | 5 | 6 | 3 | 2 | 2 | 2 | 1 | 1 | 1 | 2 | - | | | | | |
| UEFA B | 2 | 2 | 4 | 6 | 5 | 5 | 6 | 5 | 5 | 4 | 4 | | | | | |
| UEFA C | - | - | - | - | 1 | - | 1 | - | 1 | 2 | 1 | 4 | 25 | 48 | 6 | 2 |
| ADBTİA | - | - | - | - | - | 1 | - | 1 | - | - | - | | | | | |

QEYD:

*Xarici məşqçilər rəhbərlik edir

* GFİP rəhbəri məşqçi qismində fəaliyyət göstərir

*QK – Qızlar komandası

ADBTİA - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

# Məşqçilik ixtisası ilə bağlı məlumatlar




Lisenziyalaşdırma qrupu mövsüm ərzində Lisenziyalaşdırma prosesi çərçivəsində məşqçilərin təqdim olunan sənədləri ilə bağlı monitorinq həyata keçirirdi. Nəticələr aşağıda göstərilmiş statistik məlumatda öz əksini tapmışdır.

13 məşqçi kateqoriyalarının etibarlıq müddətini AFFA tərəfindən keçirilən kurslar vasitəsi ilə uzadıb və ya daha yüksək kateqoriyalar əldə edib.
1 məşqçi Belarusda keçirilən kurslara yazılıb
1 məşqçi Gürcüstanda keçirilən kurslara yazılıb
1 məşqçi Azərbaycanda keçirilən kursa yazılıb

- Məşqçilik ixtisası tələblərinə cavab verən məşqçilərin sayı
- Məşqçilik ixtisası ilə bağlı uyğunsuzluqları olan məşqçilərin sayı
- İmtahandan kəsilib və əvəz olunub
- Kurslara ümumiyyətlə yazılmayıb
- Hazırda kurslarda iştirak edən
- Klubların ixtisası uyğun gəlməyən məşqçilərlə bağlı qərarlar gözlənilir
- Etibarlıq müddəti uzadılıb və ya daha yüksək kateqoriya əldə olunub

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Hüquq meyarları üzrə statistik göstəricilər

# Klublarda struktur necə təşkil olunub?

## Struktur klublar tərəfindən təqdim olunmuş sənədlərə istinadən tərtib olunub



# **Klubların ali rəhbərliyi**
## AFFA tərəfindən təklif olunan struktur




# **Klublarda hansı əməkdaşlar imza səlahiyyətinə malikdirlər?**



# Klubların təsisçiləri barədə statistik göstəricilər




Qeyd: Klubların təşkilati-hüquqi formaları əsasən Məhdud Məsuliyyətli Cəmiyyətdir.

AFFA

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

# Maliyyə meyarları üzrə statistik göstəricilər

Qeyd: Rəvan FK maliyyə sənədlərini təqdim etmədiyi üçün maliyyə meyarları üzrə hesabat 9 klub üzrə hazırlanıb.

# 2015-ci ildən 2016-cı ilə nisbətən klublar gəliri haradan əldə edir?




2016-cı ildə klubların ümumi gəlirləri keçən ilə nisbətən 23% artmışdır (AZN)

2016-cı ildə sponsorlardan daxilolmalar klubların ümumi gəlirlərinin 58%-ni təşkil etmişdir

2015-ci ildə isə bu rəqəm 77% təşkil etmişdir

Əsas səbəb 2016-cı ildə sponsorlardan daxilolmaların 11 % azalmasıdır

UEFA-dan daxilolmalar 20%-dən 37%-dək yüksəlmişdir

# Klubların büdcəsinə vəsait haradan daxil olur?
## (2015-ci və 2016-cı illərin müqayisəsi)



# Premyer Liqa və UEFA-nın yarışlarına bilet satışından əldə olunmuş gəlirlər

## Premyer Liqa yarışlarına bilet satışından gəlirlər




Premyer Liqa oyunlarına bilet satışından olan ümumi gəlirlər **(-80%),** UEFA-nın yarışları üzrə isə **(-52%)** azalmışdır

## UEFA-nın yarışlarına bilet satışından gəlirlər






AFFA

Azərbaycan, Bakı AZ 1025,
Nobel prospekti 2208
Tel: +99412 404 2777
Faks: +99412 404 2772
info@affa.az
www.affa.az

**KLUBLARIN LİSENZİYALAŞDIRILMASI ÜZRƏ HESABATI 2017**
Azərbaycan Futbol Federasiyaları Assosiasiyası

Hesabatı hazırlayanlar:

Elxan Məmmədov, Elçin Məmmədov, Anar Kazımlı,Bəhram Dadaşov,
Aynur Abdullayeva, Kamran Qədirli, Günay Zamanlı

Qrafik dizayn
Xamid Baxşiyev

AFFA

Azərbaycan Futbol
Federasiyaları Assosiasiyası